525-ci qəzet

8 yanvar 2021-ci il, cümə

www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Çin və Qazaxıstan mətbuatı "Nizami Gəncəvi ili"ndən yazıb

Çində və dünyada milyonlarla oxucusu olan nüfuzlu "China Daily" qəzeti "Azərbaycan 2021-ci ili "Nizami Gəncəvi ili" elan edib" başlıqlı məqalə yayıb. AZƏRTAC-ın Çin Xalq Respublikasındakı xüsusi müxbiri Şahin Cəfərovun müəllifi olduğu məqalədə Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümü ilə əlaqədar ölkə Prezidenti İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Sərəncam imzaladığı bildirilib. Qeyd edək ki, çap, onlayn, sosial şəbəkələr, mobil cihazlar üçün tətbiqlər üzrə milyonlarla oxucusu olan "China Daily" təkcə Çində deyil, eləcə də dünyada ingilis dilində nəşr edilən ən populyar qəzetlərdən biridir. Onun xarici ölkələrdəki oxucularının sayı Çindəki oxuculardan çoxdur. Qəzetin Çində buraxılan əsas nəşrinə paralel olaraq, ABŞ-da (Nyu-York), Avropada (London), Afrikada (Nayrobi) və Asiya ölkələri üçün Honkonqda ayrıca versiyaları dərc olunur.




Qazaxıstanın "Inform.kz" informasiya agentliyinin saytında, rəsmi "Egemen.kz" qəzetində "2021-ci il Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilib" sərlövhəli məlumat dərc edilib. Məlumatda bildirilir ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. "Inform.kz" informasiya agentliyi AZƏRTAC-a istinadla Azərbaycan Respublikası Prezidentinin Sərəncamının mətnini yayıb. "Egemen.kz" qəzetində dərc edilən məlumatda isə Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs olunur.